

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# Şərq qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 5 (23.647)

*9 yanvar 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası ilə uğurla yekun vurub





*Yanvarın 8-də Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 2020-ci ilin yekunları ilə bağlı tədbiri keçirilmişdir.*

Əvvəlcə Vətən müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, hazırda dünyanı əhatə edən pandemiya federasiyanın fəaliyyətinə də təsirsiz ötüşməmiş, qarşıda duran vəzifələrin icrası məlum məsələyə görə təxirə salınmışdır. Buna baxmayaraq, Şahmat Federasiyası üçün ili uğurlu hesab etmək olar. Belə ki, il ərzində şahmatçıların bu idman növünə marağının artırılması üçün mütəmadi olaraq onlayn tədbirlər, yarışlar keçirilmişdir. Bu da muxtar respublikada fəaliyyət göstərən şahmat mərkəzlərində və məktəblərdə müasir texnologiyanın yüksək səviyyədə olmasının göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində şahmatçılar üçün hərtərəfli şərait yaradılmışdır. Bunun nəticəsidir ki, muxtar respublikada şahmatın inkişafı sahəsində görülən işlər beynəlxalq şahmat ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir.

Vurğulanmışdır ki, 2020-ci il həm də ölkəmizin tarixinə qızıl hərflərlə yazılmışdır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında İkinci Qarabağ müharibəsindəki tarixi qələbə nəticəsində 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız geri qaytarılmışdır. Müharibədə Naxçıvanın igid zabit və əsgərlərinin göstərdiyi şücaət danılmazdır. Bu onu göstərdi ki, Naxçıvanda gənclik vətənpərvər ruhda tərbiyə olunur və böyüyür.

Qeyd edilmişdir ki, Şahmat Federasiyası 2021-ci il üçün planlarını artıq təsdiqləmişdir. Bununla yanaşı, federasiyanın məşqçi-müəllimləri, eləcə də zəka sahibləri üçün yeni kitabların tərcüməsi, məşqçilərin ərsəyə gətirdiyi kitabların çapı nəzərdə tutulmuşdur. Geridə qoyduğumuz ildə şahmat məktəblərinin Avropa ölkələri, Türkiyənin müxtəlif klubları, eləcə də ölkənin bəzi şəhər və rayon şahmat məktəbləri ilə onlayn yoldaşlıq görüşləri təşkil etməsi federasiyamızın mütəmadi olaraq çalışdığından xəbər verir. Xüsusilə Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbi ilə Lənkəran rayon şahmatçıları arasında keçirilən yoldaşlıq görüşü yüksək qiymətləndirilmişdir.

Federasiya rəhbəri çıxışının sonunda diqqətə çatdırmışdır ki, bu gün Ali Məclis Sədrinin qayğısı nəticəsində Naxçıvan şahmatı yeni inkişaf dövrünü yaşayır. Şahmatçılarımız beynəlxalq arenada öz yerini tutur, reytinqlərini artırırlar. Federasiya üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirən Seymur Talıbov cari ildə də bu uğurlu fəaliyyətin davam etdiriləcəyinə əminliyini vurğulamışdır.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev federasiyanın 2020-ci ildə gördüyü işlərdən danışaraq bildirmişdir ki, ötən il 38 şahmatçımız Ağcabədi rayonunda keçirilən şahmat üzrə Azərbaycan birinciliyinin seçmə yarışlarında mübarizə aparmışdır. 12 zəka sahibimiz ölkə birinciliyində iştirak etmək hüququ əldə etmişdir. Sevindirici haldır ki, bu şahmatçılar arasında Babək, Şərur və Ordubad rayonlarının şahmatçıları da yer almışdır. Geridə qoyduğumuz ildə onlayn olaraq həftədə 5 dəfə dərs keçilmiş, yoldaşlıq görüşləri təşkil olunmuşdur. Eyni zamanda bütün dərslər federasiyanın "YouTube" kanalına yerləşdirilmiş, CD-lər şəklində bütün məktəblərə paylanmışdır. Federasiyanın saytı operativ olaraq çalışır və məlumatlar hər gün yenilənir. Emin Hacıyev yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə şahmatçılar adından minnətdarlıq etmişdir.

Sonra rayon şahmat məktəblərinin direktorları və məşqçi-müəllimləri ilə növbəti ildə qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılmış, məşqçi-müəllimlərin fikirləri dinlənilmiş, təkliflər müzakirə olunmuşdur.

**"Şərq qapısı"**

## Torpaqların su təminatı yaxşılaşdırılır



Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması sahəsində tədbirlər davam etdirilir. Torpaq sahələrinin suvarma suyu ilə təmin olunması, əhalinin içməli su təchizatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması üçün dekabr ayında da işlər davam etdirilmiş, sudan səmərəli istifadəyə nəzarət artırılmışdır. Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 11,9 milyon kubmetr suvarma suyu verilmiş, bunun müqabilində 9 min 682 hektar torpaq sahəsi suvarılmışdır.

Bu dövrdə 13,4 kilometr beton və torpaq kanal, 12 kilometr ara arxlar, 5 kilometr kollektor lildən təmizlənmiş, 77,4 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınmışdır.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi və torpaqların suvarılmasının səmərəliliyinin yüksəldilməsi işlərinin davamı olaraq Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə də qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılmış, 380 metr ana xətt çəkilmişdir. Həmçinin Şahbuz rayonunun Külüs kəndi ərazisində yeni tikilən nasos stansiyası vasitəsilə suvarılacaq sahədə işlər davam etdirilmiş və 1,82 hektar sahə əkin üçün yararlı hala salınmışdır.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində 280 metr su, 160 metr kanalizasiya, Kəngərli rayonunun Xok kəndində 7,9 kilometr su xətti çəkilmişdir. Sədərək və Kəngərli rayonlarında tikintisi aparılan yuxarı və aşağı su anbarlarında işlər başa çatdırılmış, nasos stansiyaları binalarında tikinti işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli orqanları tərəfindən dekabr ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidməti və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 6 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergiödəyicisində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmaması, 1 vergiödəyicisində malların təqdim edilməsi zamanı qaimə-faktura təqdim edilməməsi, 1 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 3 vergiödəyicisində isə "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Heydərxanlı məscidinə yeni həyat bəxş edilir



Qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Naxçıvanda tarixi keçmişimizi əyani şəkildə əks etdirən abidələrin qorunması, yaşadılması istiqamətində hər il genişmiqyaslı işlər görülür, tarixi tikililər, türbələr, məscid və ziyarətgahlar bərpa olunur, onlara ikinci həyat verilir. Hazırda Babək rayonunun Cəhri qəsəbəsindəki tarixi Heydərxanlı məscidi də özünün orijinal layihəsi əsasında yenidən inşa olunur. İbadət ocağı ikimərtəbəli olacaq. Birinci mərtəbə kişilər, ikinci mərtəbə isə qadınlar üçün nəzərdə tutulub. Məscidin minarəsi 19 metr olacaq və burada axund otağı da yaradılacaq.

Məlumat üçün bildirək ki, Cəhri qəsəbəsində yerləşən və el arasında Heydərxanlı məscidi kimi tanınan ibadət ocağı Naxçıvanda orta əsrlərdə yaradılan məscidlərdən biridir. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Naxçıvanın məscid və ziyarətgahları" kitabında bu məscid barədə yazıb: "Heydərxanlı məhəlləsində yerləşən bu məscidin divarları kvadrat formalı çiy kərpicdən inşa olunub, fasadı bişmiş kərpiclə üzlənib. Məscid qoşamehrablıdır. Qeyd etmək lazımdır ki, Naxçıvan bölgəsində qoşamehrablı məscidlərə, demək olar ki, nadir hallarda rast gəlinir. Xüsusi memarlığa, qədim tarixə malik olan məscid hazırda yarımuçuq vəziyyətdədir". Həmin nəşrdə müəllif qeyd edir ki, XV əsrə aid olan ibadət ocağı sovet hakimiyyəti illərində təsərrüfat məqsədilə anbar kimi istifadə olunub. Məqsəd ondan ibarət idi ki, xalqımız milli və dini dəyərlərimizdən uzaq düşsün. Beləliklə, Heydərxanlı məscidi həmin dövrdə baxımsızlıq ucbatından güclü aşınmaya məruz qalıb, divarları və dam örtüyü uçub dağılıb.

Qeyd edək ki, Cəhri qəsəbəsində 6 məscid və son dövrlərdə tikilən 2 Mərasim evi vardır.

***Xəbərlər şöbəsi***

## Muxtar respublikada özünüməşğulluq proqramı həyata keçirilməkdədir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə həyata keçirilməsinə başlanılan, mühüm sosial əhəmiyyətə malik özünüməşğulluq proqramının icrası uğurla davam etdirilir. Belə ki, dekabr ayında muxtar respublika üzrə, ümumilikdə, 33 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 21 nəfərin hər birinə 2 baş iribuynuzlu, 6 nəfərin hər birinə 20 baş xırdabuynuzlu mal-qara, 1 nəfərə 100 baş quş və quş yemi, 1 nəfərə qaynaqçı avadanlıqları və ləvazimatları, 4 nəfərə isə miniyerşumlayan aqreqat verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 1 nəfəri cəzaçəkmə müəssisəsindən azad olunan, 1 nəfəri şəhid ailəsi, 4 nəfəri isə gənclərdir.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, həbelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb.

Nicat Babayev sosial qayğıya ehtiyacı olan şəxslər adından göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib. Sonra çıxış edənlər özünüməşğulluq proqramının icrasının əhəmiyyətindən danışıb.

Proqrama cəlb edilmiş sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, verilmiş aktivlərdən səmərəli şəkildə istifadə olunmasının stimullaşdırılması məqsədilə ötən dövr ərzində təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirən Babək rayon Nehrəm qəsəbə sakini Vilayət Fərəcova və Sədərək rayon Sədərək kənd sakini Zülfiyyə Kazımovaya otdoğrayan aqreqat verilib. Nazirlik tərəfindən bu kimi həvəsləndirici tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda təhsil televiziyası və radiosunun təqdimatı olub

***Yanvarın 8-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilən Televiziya və Radio Verilişləri Redaksiyasının təqdimatı keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Artıq “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosu təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirəcək, muxtar respublikanın təhsil müəssisələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərəcəkdir.

Qeyd olunmuşdur ki, muxtar respublikada həyata keçirilən təhsil siyasətinə, təhsil quruculuğuna, cəmiyyətin elm və təhsil üzrə ümumi maraqlarının təmin edilməsinə yönəlmiş televiziya və radio proqramlarının hazırlanması və yayımı teleradionun proqram siyasətinin əsasını təşkil etməlidir. Tariximiz, mədəniyyətimiz, milli dəyərlərimizlə bağlı maarifləndirici verilişlərin yayımı gənc nəslin vətənpərvərlik, eləcə də tarixi-mədəni irsimizə və milli dəyərlərimizə sədaqət ruhunda tərbiyəsində mühüm əhəmiyyətə malik olacaqdır. Teleradioda informasiya siyasəti də həyata keçiriləcək, muxtar respublika həyatında təhsillə bağlı yeniliklər və aktual məsələlər haqqında tamaşaçı və dinləyicilərə operativ məlumatlar çatdırılacaqdır. Uşaqların intellektual və fiziki inkişafı, sadə əmək vərdişlərinə yiyələnməsi, istedadlarının üzə çıxarılması və sağlamlığının qorunması ilə bağlı maarifçilik işi teleradionun proqram siyasətində əsas yer tutacaqdır. Muxtar respublikanın təhsil müəssisələrindəki mövcud imkanlar və şərait tədrisyönümlü teleradio verilişlərinin çəkilişini və yazılışını təşkil etmək üçün geniş imkanlar açır. Bu istiqamətdə sistemli iş aparılmalı, televiziyanın fondu yeni verilişlərlə zənginləşdirilməli, düzgün proqram siyasəti həyata keçirilməlidir.



Ülvi Hüseynli Ali Məclis Sədrinin müəyyənləşdirdiyi vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikanın ümumtəhsil məktəblərində yaradılmış şərait multimedia xarakterli dərsliklərin, elektron tədris vasitələrinin, yeni təlim metodlarının, o cümlədən STEAM təliminin təhsil prosesində tətbiq olunmasına geniş imkanlar açmışdır. Bütün bunlar isə muxtar respublikanın təhsil mühitində innovativ yanaşmaların tətbiqini təmin etməklə yanaşı, eyni zamanda təhsilin inkişafına da öz müsbət təsirini göstərməkdədir. Televiziya və Radio Verilişləri Redaksiyasının Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin tabeliyinə verilməsi isə muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının növbəti bariz nümunəsi olmaqla, təhsilin informasiyalaşdırılmasında yeni bir mərhələ təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında artıq 2021-ci il yanvarın 1-dən “Kanal 35” televiziyası tədrisyönümlü fəaliyyətə başlamışdır. Bu isə şagirdlərin asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, onların maariflənməsinə, yeni biliklər almasına, əldə etdikləri bilikləri zənginləşdirmələrinə geniş imkanlar yaradacaqdır. Təhsil Nazirliyi tərəfindən şagirdlərin Azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlər, vətənpərvərlik ruhunda tərbiyə olunmaları, onlara sağlam həyat tərzinin təbliği istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi nəzarətdə saxlanılır. “Kanal 35” televiziyasının da əsas missiyası maarifçilik olacaqdır. Rəhman Məmmədov təhsilə göstərdiyi dövlət qayğısına görə, muxtar respublikanın təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.




Tədbirdə Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru Ramal Məmişov çıxış edərək bildirmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra bütün sahələrdə olduğu kimi, televiziya və radio da ölkəmizdə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. “Kanal 35” televiziyası da ulu öndərimizin hakimiyyətə gəlməsinin 35 illiyi münasibətilə yaradılmışdır.

***“Televiziya məktəb qədər vacib bir sahədir”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosu böyük inkişaf yolu keçmişdir. Redaksiyanın kollektivi üzərinə düşən bu məsuliyyətli işin öhdəsindən gəlmək üçün səylə çalışacaq.

Sonda televiziyanın yeni fəaliyyət istiqaməti ilə bağlı videoçarx nümayiş olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Dövlət proqramı uğurla icra edilmişdir

***Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Muxtar respublikada bütün kateqoriyadan olan uşaqlara, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara daim diqqət və qayğı göstərilir, onların sosial reabilitasiyası, təlim-tərbiyələri, asudə vaxtlarının təşkili, cəmiyyətə inteqrasiyası, təhsil hüquqlarının həyata keçirilməsi və intellektual səviyyələrinin yüksəldilməsi hər zaman diqqət mərkəzində saxlanılır. Xüsusi kateqoriyadan olan uşaqlara həssaslıqla yanaşılan muxtar respublikada müvafiq sahə ilə bağlı Dövlət proqramları qəbul edilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Qəbul olunmuş proqram Naxçıvan Muxtar Respublikasında müvafiq sahədə kadr potensialının təkmilləşməsinə və hər bir sağlamlıq imkanları məhdud uşağın layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiya olunmasına əlverişli şərait yaratmışdır. Müvafiq proqramın icrası ilə bağlı aid dövlət orqanları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin üzərinə bir sıra vəzifələr qoyulmuşdur. Komitə hesabat dövrü ərzində sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafı, cəmiyyətə inteqrasiyası, sosial reabilitasiyası, təlim-tərbiyəsi, asudə vaxtlarının səmərəli keçirilməsi, istedadlarının aşkar olunması və sair ilə bağlı ardıcıl tədbirlər həyata keçirmişdir. Belə ki, mütəmadi olaraq sağlamlıq imkanları məhdud uşaqların ailələri ilə əlaqə saxlanılmış, məlumat bazasının yenilənməsi ilə bağlı işlər görülmüş, uşaqların sağlamlıq imkanları məhdudluq göstəricisi və səbəbləri araşdırılmış, əldə olunan məlumatlar yaradılmış bazaya əlavə olunmuş və uşaqların potensialına uyğun olaraq məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə cəlbi ilə bağlı tədbirlər görülmüşdür. Komitə tərəfindən məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barədə məlumat bazası yaradılmış və baza hər rüb mütəmadi olaraq yenilənmişdir. 2020-ci il 1 iyul tarixə olan statistik məlumata əsasən muxtar respublikadakı bu kateqoriyadan olan 18 yaşadək 1881 uşaqdan 257 nəfərin məktəbəqədəryaşlı uşaqlar olduğu müəyyən olunmuşdur. Məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası komitənin diqqət mərkəzində saxlanılmış, 18 uşaq məktəbəqədər təhsil müəssisələrinə cəlb edilmişdir. Komitə tərəfindən bu kateqoriyaya aid uşaqların məktəbəqədər müəssisələrə cəlbi ilə yanaşı, Naxçıvan Şəhər Körpələr Evinin Ailələrə Dəstək Mərkəzinə cəlbi də diqqətdə saxlanılmış və 9 uşaq mərkəzdəki təlimlərə yönəldilmişdir.

Məlumat üçün qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 14 fevral tarixli Sərəncamı ilə Naxçıvan Şəhər Körpələr Evinin fəaliyyət istiqaməti dəyişdirilərək Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi olmuşdur. Mərkəz həm körpələr evi, həm də sağlamlıq imkanları məhdud uşaqların ailələrinə dəstək məqsədilə fəaliyyət göstərir. Bu da muxtar respublikada yaşayan müvafiq kateqoriyadan olan uşaqlara, eləcə də onların ailələrinə göstərilən diqqətin bariz nümunəsidir. Mərkəz yüksək səviyyəli kadrla və müasir avadanlıqlarla təchiz edilərək uşaqların istifadəsinə verilmişdir. Həmçinin hesabat dövrü ərzində məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə mütəxəssislər tərəfindən 3 dəfə kurs keçirilmiş və iştirakçılara geniş maarifləndirici məlumatlar verilmiş, materiallar, əyani vəsaitlər paylanmış, onları maraqlandıran suallar cavablandırılmışdır. Komitə tərəfindən təşkil olunmuş kurslara 158 müəllim və metodist cəlb edilmişdir.

Hesabat dövrü ərzində ümumtəhsil müəssisələrinə 239, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbinə isə 6 sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur. Proqramın icrası ilə əlaqədar





əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 3 uşaq distant təhsilə cəlb edilmişdir. Eyni zamanda tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud uşaqların məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmini də həyata keçirilmişdir. Komitə tərəfindən hesabat dövrü ərzində aztəminatlı ailələrdən olan 404 uşağa məktəbli geyimi və dərs ləvazimatları, 365 uşağa isə qış geyimi verilmişdir, onların 56-sı sağlamlıq imkanları məhdud uşaqlardır. Tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, cəmiyyətə adaptasiyası və onlar üçün tolerant mühitin yaradılması diqqətdə saxlanılmışdır. Belə ki, hesabat dövrü ərzində komitə tərəfindən uşaq müəssisələrində 492 monitorinq keçirilmişdir. Həmçinin uşaq hüquqlarının qorunması ilə əlaqədar keçirilən monitorinqlərdə tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlar yoxlanılmışdır. Sevindirici haldır ki, monitorinqlər zamanı müvafiq uşaqlara qarşı heç bir hüquq pozuntusu halı qeydə alınmamışdır. Monitorinqlərin sonunda həmin uşaqların valideynləri, məktəb psixoloqları və müəllimlərlə 14 dəfə maarifləndirici görüş təşkil olunmuşdur.

Proqramın icrasına uyğun olaraq 2016-cı ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fərdi, ailə və uşaq psixoloji məsləhət xidmətinin təşkili məqsədilə psixoloji dəstək xidməti yaradılmışdır. Hesabat dövrü ərzində komitə tərəfindən 23 sağlamlıq imkanları məhdud uşaq müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərin artırılması məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunan məşğələlərə cəlb edilmişdir. Həmçinin müvafiq kateqoriyadan olan 45 uşaq Naxçıvan Uşaq Bərpa Mərkəzinə reabilitasiya üçün yönləndirilmişdir.

Həmçinin ötən dövr ərzində mütəxəssislər tərəfindən muxtar respublikanın şəhər və rayonlarında sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı ibtidai sinif müəllimləri, məktəb psixoloqları və distant tədris üzrə pedaqoji kadrlar üçün 8 dəfə seminar keçirilmiş və iştirakçılara geniş maarifləndirici məlumatlar verilmiş, materiallar, əyani vəsaitlər paylanmış, onları maraqlandıran suallar cavablandırılmışdır. Seminarlara, ümumilikdə, 694 nəfər müvafiq sahəyə məsul işçilər cəlb olunmuşdur. Komitə tərəfindən uşaqların tətil günlərində asudə vaxtlarının səmərəli keçirilməsi ötən dövr ərzində də diqqətdə saxlanılmışdır. Hesabat dövrü ərzində 11 film, 24 teatr tamaşası və cizgi filmi nümayiş olunmuş, 8 dəfə muzeylərə və tarixi-memarlıq abidələrinə ekskursiya və 6 konsert proqramı təşkil edilmişdir. Ümumilikdə, keçirilən tədbirlərə 4154 uşaq cəlb olunmuşdur. Bundan əlavə, sağlamlıq imkanları məhdud uşaqlar üçün Ağbulaq İstirahət Mərkəzində 4 dəfə “Yay məktəbi” təşkil olunmuş və ümumilikdə, 147 uşaq iştirak etmişdir.

Hesabat dövrü ərzində 35 sağlamlıq imkanları məhdud uşaq muxtar respublikada fəaliyyət göstərən musiqi məktəblərinə, 45 sağlamlıq imkanları məhdud uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə cəlb olunmuşdur. Bununla yanaşı, 4 müvafiq kateqoriyadan olan uşaq peşə məktəblərinə yönləndirilmişdir.

İdmanın kütləviliyinin təbliği, uşaqların sağlam və fəal həyat tərzinə yönəlməsi komitənin diqqət mərkəzində olmuşdur. Belə ki, komitə tərəfindən bu kateqoriyaya aid 11 uşaq muxtar respublikada fəaliyyət göstərən idman məktəblərinə cəlb edilmişdir. Bu qəbildən olan uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlər, o cümlədən yaradıcılıq müsabiqələri, bilik və idman yarışları keçirilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, hesabat dövrü ərzində 16 dəfə müsabiqə təşkil edilmiş və ümumilikdə, müsabiqələrə 333 uşaq cəlb edilmişdir. Eyni zamanda komitə tərəfindən muxtar respublikanın kütləvi informasiya vasitələrində sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiya tədbirləri ilə bağlı maarifləndirici çıxışlar edilmişdir. Ümumilikdə, hesabat dövründə 42 televiziya, 41 radio çıxışları olmuş, 36 qəzet materialı dərc edilmişdir.

Bundan əlavə, ənənəvi olaraq hər il talassemiya və hemofiliyalı uşaqlar üçün qanvermə aksiyası keçirilmişdir. Hesabat dövrü ərzində keçirilən qanvermə aksiyalarında 40 litr qan toplanaraq Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qan Bankına təhvil verilmişdir.

Həmçinin təqvimin əlamətdar günlərində sağlamlıq imkanları məhdud uşaqların bayram görüşlərinə gedilmiş, onlara bayram sovqatı, ehtiyaclarına uyğun hədiyyələr və tibbi ləvazimatlar təqdim olunmuşdur. Ümumilikdə, hesabat dövründə 251 sağlamlıq imkanları məhdud uşağa hədiyyə təqdim olunmuşdur.

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bundan sonra da xüsusi qayğıya ehtiyacı olan uşaqların hərtərəfli inkişafı ilə əlaqədar lazımi tədbirlər görəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*Dünya şeiriyyətinin günəştək nur saçan müdrik siması, Şərq poeziyasının ecazkar qüvvəsi, Azərbaycanın bəşəriyyət tarixinə bəxş etdiyi dahi şəxsiyyətdir Nizami Gəncəvi... Onun yaradıcılığı dünya ədəbiyyatı tarixində təkrarolunmaz bir mərhələ, yeni bir ədəbi-tarixi dövr və müdriklik zirvəsidir. Humanist, mütəfəkkir şair kimi şöhrət qazanan görkəmli ədibin əsərləri doqquz yüz ilə yaxındır ki, bədii söz xəzinəsinin incisi kimi bütün nəsillərin mənəvi dünyasına işıq saçıb, böyük tərbiyəvi əhəmiyyət kəsb edərək bəşəriyyətin yoluna mayak olub. Nizami Gəncəvi bir ədib kimi bütün dövrlərin fövqündə dayanmağı bacarıb. O təkcə Azərbaycan xalqının deyil, bütün dünyanın sevimli şairi olaraq şöhrət qazanıb. Müdrik şairin yaratdığı obrazlar, ideyalar bəşəriyyətin hansı ölkəyə, hansı irqə və hansı millətə mənsubluğundan asılı olmayaraq, insanın ruhuna, əqlinə və təfəkkürünə hakim kəsilir.*

**2021- ci il "Nizami Gəncəvi ili"dir**

# Bədii söz xəzinəsinin incisi və ya 880 illik bəşəri sərvət

Böyük şairin bəşəriyyətə təlqin etdiyi mənəvi dəyərlər ən çətin zamanlarda da insanlar üçün bir ümid işığına, gələcəyə, inkişafa yol göstərən mənəvi bələdçiyə çevrilib. Nizami yaradıcılığı bəşəriyyətin müxtəlifliyini, bilik və kamillik yolu ilə zamanın axarını dəyişməyə çalışmasını təbliğ edir, ləyaqətli, ədalətli və ahəngdar bir cəmiyyətə səsləyir. Onun əsərləri mədəniyyətin xalqlar arasında körpü salmasını və ictimai şüuru təcəssüm etdirir. Şairin yaradıcılığı özündən sonrakı dövrdə böyük bir ədəbi məktəb formalaşdırıb. O hələ sağlığında özünə şeirdən əbədi bir mücəssəmə qoyub ki, ondan sonra yazıb-yaradan böyük sənətkarlar Nizamini özlərinə ustad biliblər. Nizami Gəncəvi sözünün işığında dünyanın müxtəlif ölkələrində yüzlərlə şair, filosof yetişib. Nəsimi qədər qüdrətli, Füzuli qədər əzəmətli şairlərin belə, yaradıcılıqlarında Nizami müdrikliyi duyulur.

Yazılı mənbələrdə Nizaminin həyatına dair məlumat az olsa da, şairin əsərlərindən onun insanlığa nümunə olan şəxsiyyəti, mənəvi aləmi haqqında ətraflı məlumat almaq mümkündür. Görkəmli mütəfəkkirin mənalı həyat yolu qədim Gəncə şəhərindən başlayır. 1141-ci ildə Gəncədə anadan olan Nizamini 1169-cu ildə Dərbənd hökmdarı öz sarayına cəlb etmək üçün ona Afaq adlı bir kəniz göndərir. Şair Afaqı qəbul edir və onunla evlənir. 1174-cü ildə Nizaminin Afaqdan Məhəmməd adlı bir oğlu olur. 1179-cu ildə şairin həyat yoldaşı vəfat edir və o, ikinci dəfə Gövhər adlı bir qadınla evlənir.

İlk yaradıcılığa rübai yazmaqla başlayan Nizami dünya ədəbiyyatı tarixində beş poemadan ibarət "Xəmsə"nin müəllifi kimi məşhurdur. O, xəmsəçilik ədəbi məktəbinin əsasını qoyaraq klassik ədəbiyyata yeni bir dünyagörüş, forma və məzmun gətirib. Nizami Gəncəvi 1176-1178-ci illərdə "Xəmsə"yə daxil olan ilk böyük əsəri "Sirlər xəzinəsi"ni yazıb. 1180-ci ildə Nizami Yaxın Şərqdə ilk romantik poema sayılan "Xosrov və Şirin" poemasını bitirərək Məhəmməd Cahan Pəhləvana hədiyyə edib. 1188-ci ildə Nizami üçüncü böyük əsəri "Leyli və Məcnun", 1193-1197-ci illərdə isə Ağsunqar Körpə Arslana ithaf etdiyi "Yeddi gözəl" poemalarını yazıb. 1200-cü ildə Nizami yaradıcılığının ən uca zirvəsi sayılan "İskəndərnamə" ilə Azərbaycan poeziyasının ölməzliyinə möhür vurub. "İskəndərnamə" poeması XII yüzillik Azərbaycan intibah şeiri və mədəniyyətinin əlçatmaz zirvəsidir. Bu poema İskəndərin, alimlərin və Nizaminin ölümü ilə tamamlanır. 1209-cu ildə Nizami Gəncəvi doğulduğu qədim Gəncə şəhərində vəfat edir. XIII-XIV əsrlərdə Nizaminin Gəncə şəhərinin yaxınlığında – Əhmədli kəndində dəfn olunduğu yerdə – qəbri üstündə ağ əhəngdaşından türbə tikilir. XIX əsrin 40-cı illərində tamamilə dağılmaq təhlükəsi qarşısında qalan türbənin ciddi təmirə ehtiyacı olduğuna görə, 1891-ci ildə Gəncəvinin anadan olmasının ildönümü münasibətilə türbənin yerində Nizami Gəncəvinin məqbərəsi ucaldılır.

Nizami kimi dahi bir sənətkarın yaradıcılığına sovet dövründə dövlət səviyyəsində yüksək qiymətin verilməsi ulu öndər Heydər Əliyev müdrikliyinin bəhrəsidir. Bu gün Nizami şöhrətinin, Nizami qüdrətinin qol-qanad açmasında ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Dahi şəxsiyyət ədəbi irsin qorunmasına qayğı göstərərək, nəinki Nizami Gəncəvinin, Azərbaycanın klassik şair və ədiblərinin ev-muzeylərinin yaradılması, xatirələrinin əbədiləşdirilməsi üçün böyük işlər görüb. Ulu öndər hər zaman şairin ölməz sənətinə, dünyanı bürüyən əbədi şöhrətinə çox yüksək qiymət verərək dahi söz ustasının irsinin geniş təbliğini, onun yubileylərinin müntəzəm surətdə keçirilməsini tövsiyə edirdi. Ümummilli lider Heydər Əliyev müxtəlif vaxtlarda şairin yubileylərinin keçirilməsi, ədəbi irsinin öyrənilməsi, əsərlərinin kütləvi nəşri barədə sərəncamlar imzalayıb, ədəbi ictimaiyyətin diqqətini xalqımızın bu müdrik oğlunun şəxsiyyətinə, sənət aləminə daha yaxından cəlb edib. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 22 sentyabr 1975-ci və 4 yanvar 1978-ci illərdə "Nizami məqbərəsinin qorunması", 1 yanvar 1979-cu ildə Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında, 28 iyul 1981-ci ildə isə dahi mütəfəkkirin 840 illik yubileyi münasibətilə verilən qərar və göstərişlər böyük şair haqqında möhtəşəm tədbirlər görülməsinə, geniş miqyaslı tədqiqatlar aparılmasına səbəb olub. "Nizami" filminin çəkilməsi, "Xəmsə" kompleks abidələrinin ucaldılması, Nizami məqbərəsinin təmiri və qorunması, "Xəmsə"nin yeni tərcümə və nəfis tərtibdə nəşr edilməsi, dünyanın bir çox şəhərlərində Nizaminin heykəllərinin ucaldılması, Bakı Metropoliteninin stansiyalarından birinə "Nizami" adının verilməsi və digər tədbirlər ulu öndərin dahi Azərbaycan şairinə olan diqqət və qayğısının bariz nümunəsidir. Onu da qeyd edək ki, mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi böyük şairimizin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi hazırda uğurla fəaliyyət göstərməkdədir. Nizami xalqımızı BMT-də YUNESKO xətti ilə tanıdan ilk şəxs olub. Şairin 850 illik yubileyi şərəfinə 1991-ci il YUNESKO tərəfindən "Nizami ili" elan edilib.

Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev də ölməz Nizami irsinə xüsusi ehtiram bəsləyir, onun təbliğinə həmişə böyük həssaslıqla yanaşır. Dövlət başçımızın böyük mütəfəkkirin anadan olmasının 880 illiyi münasibətilə imzaladığı 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə bu il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilməsi şairin irsinə ehtiramın daha bir bariz ifadəsidir. Sərəncamda deyilir: *"Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir"*. Sərəncam bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyət, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri kimi Nizami Gəncəvinin tarixi irsinin misilsiz qiymətidir.

Nizami Gəncəvi yaradıcılığında cəmiyyətdəki ziddiyyətlər, ağır epik lövhələr, həmin ziddiyyət və ağırlıqlardan doğan narazılıqlar qədər bu ziddiyyətlərin, əzab və əziyyətlərin aradan qalxacağına, xeyrin hər zaman qalib gələcəyinə böyük bir ümid olub. Dahi mütəfəkkirin əsərlərinin əsas qayəsində məhz bəşəriyyət üçün ali məqsədlər dayanıb. Böyük ədib "Xəmsə"sində də, lirik şeirlərində də məhz mütərəqqi ideyaları, inkişaf niyyətlərini təbliğ edib. Dağıdıcılığı yox, quruculuğu, nifrəti, əzabı yox, onun rifahına çalışmağı önə çəkib. Ədaləti, insanpərvərliyi, sevgini, dostluğu, əməksevərliyi, dürüstlüyü, saflığı və bu kimi mənəvi keyfiyyətləri insanlığın zinəti kimi görüb. Elə 2021-ci ilin "Nizami Gəncəvi ili" və Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi də əsrlərdən süzülüb gələn ümid işığının harmoniyası, xeyrin şərə qalibiyyətidir. "Nizami Gəncəvi ili"nin xalqımızın Zəfər ilinə çevrilmiş 2020-ci ildən sonraya təsadüf etməsi 44 günlük Vətən müharibəsində xeyrin şər üzərində qələbə çalması Qarabağ torpaqlarında hər kəsin rifah içində yaşamasına, xoşbəxt bir həyatın qurulmasına, insan hüquq və azadlıqlarının qorunmasına, ermənilərin illərlə xarabazarlığa çevirdikləri məkanlarımızın yenidən cənnətə çevrilməsinə zəmin yaradan qələbədir. Artıq Nizami Gəncəvinin bundan sonrakı yubiley tədbirləri mədəniyyət mərkəzimiz azad Şuşamızda da keçiriləcək, sevgisi ilə mənəvi dünyamızı hifz edən Nizaminin nigaran ruhu xeyrin böyük qələbəsindən sonra səmada xoşbəxtliklə pərvaz edəcək, Nizami misralarının əsrlərdən gələn səsi bundan sonra da firavanlığın, nicatın yolunu göstərəcək. Dünya bədii mədəniyyət tarixində əlamətdar möcüzələrdən olan Nizami sənətinin kamillik və müdriklik zirvəsinin söz gülüstanı bütöv Azərbaycana xoş təravət saçacaq.

**Gülcamal TAHİROVA**

# Naxçıvandan bəhs edən fundamental monoqrafiya Rusiyada nəşr olunub




AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" adlı monoqrafiyası Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində rus dilində işıq üzü görüb.

Giriş, səkkiz fəsil, nəticə, biblioqrafiya, əlavələr və adlar göstəricisindən ibarət olan monoqrafiyada Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində rolu, qədim və orta əsrlər dövründə burada mövcud olmuş dövlətlərlə əlaqələri, Naxçıvan xanlığının tarixi, onun Rusiya imperiyası tərəfindən işğalı məsələləri tədqiq edilmişdir. Xanlığın işğalından sonra çarizmin yaratdığı inzibati-ərazi bölgü sistemi, həyata keçirdiyi köçürmə siyasəti, ermənilərin Naxçıvan ərazisində yerləşdirilməsi, irəli sürülən əsassız ərazi iddiaları, həmin iddiaların reallaşdırılması üçün ermənilərin dinc əhaliyə qarşı törətdikləri qırğınlar tarixi faktlar əsasında oxuculara təqdim edilmişdir. Bununla yanaşı, müəllifin Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvandakı ictimai-siyasi vəziyyət, Araz-Türk Respublikasının yaradılması, Naxçıvanın muxtariyyətləşməsi ilə bağlı apardığı uzunmüddətli tədqiqatların nəticələri də burada öz əksini tapmışdır.

Əsərdə Azərbaycanın dövlət müstəqilliyinin bərpasında Naxçıvanın yeri və rolu, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, ərazinin yeni statusunun təsbit edilməsi ilə bağlı məsələlər araşdırılmış, Naxçıvanın yeni Konstitusiyasının qəbul edilməsi, muxtar dövlətin əsas inkişaf istiqamətləri və qazanılmış nailiyyətlər tədqiqata cəlb olunmuşdur.

Monoqrafiyanın "Əlavələr" adlı hissəsində Moskva və Qars müqavilələrinin, Azərbaycan Respublikası Konstitusiyasının Naxçıvan Muxtar Respublikasından bəhs edən VIII fəslinin, eləcə də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının mətnləri verilib.

Kitabın elmi redaktorları Sankt-Peterburq Dövlət Universitetinin Şərq fakültəsinin Yaxın Şərq ölkələri tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Nikolay Dyakov və universitetin Türk filologiyası kafedrasının dosenti, tarix elmləri namizədi Akif Fərzəliyevdir. Nəşrin redaktoru tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev, rəyçilər isə AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli və Musa Qasımlıdır.

Tarixçilər, tədqiqatçılar, eləcə də Azərbaycanın dövlətçilik tarixi ilə maraqlanan hər kəs üçün nəzərdə tutulmuş bu dəyərli kitab artıq rusdilli tədqiqatçılar üçün daha əlçatandır.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Televiziya və radioların peşəkarlıq fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası 2020-ci ilin dekabr ayında da muxtar respublikada fəaliyyət göstərən teleradioların fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır. Qeyd edək ki, teleradioların əməkdaşları dekabr ayında baş verən yeniliklərə operativ yanaşmış, fəaliyyətlərini günün tələblərinə uyğun qurmuşlar. Şura dekabr ayında muxtar respublikada fəaliyyət göstərən teleradiolarda texniki və yaradıcılıq baxımından keyfiyyətin yüksəldilməsinə xüsusi diqqət göstərməklə yanaşı, həm də teleradioların monitorinqini aparmışdır.

Muxtar respublikada teleradioların inkişafına göstərilən diqqət və qayğı peşəkarlıq fəaliyyətinin yüksəldilməsi ilə nəticələnmişdir. Dekabr ayında Naxçıvan Dövlət Televiziyasının öz teleməhsulları efirin 72 faizini əhatə etmiş, digər telekanalların istehsalı olan materialların yayımı minimum həddə endirilmişdir. Dekabr ayında verilişlərin növbəti 107 sayı efirə təqdim olunmuşdur.

Əvvəlki aylarda olduğu kimi, dekabr ayında da vətənpərvərlik mövzusu diqqət mərkəzində olmuşdur. Televiziya əməkdaşları tərəfindən hazırlanan verilişlərin əksəriyyətində Vətən müharibəsində iştirak etmiş qazilərimiz qonaq olmuş, onların maraqlı söhbətləri əsasında telemateriallar hazırlanmışdır. Vətənpərvərlik mövzusu ilə yanaşı, televiziyada digər mövzulara da müraciət edilmiş, iqtisadi, ictimai-siyasi, hüquqi, muxtar respublikada aparılan tikinti-quruculuq işləri, təhsil, səhiyyə sahələri geniş işıqlandırılmışdır.

Şura tapşırıqlara uyğun olaraq Naxçıvan Dövlət Radiosunun efirini mütəmadi olaraq izləmiş, radioda fəaliyyət göstərən ədəbi-bədii və ictimai-siyasi redaksiyaların fəaliyyətini müqayisəli şəkildə təhlil etmişdir. 2020-ci ilin dekabr ayında radio, ümumilikdə, 596 saat efirdə olmuşdur. Ümumi efirin 51 faizini radionun öz istehsalı olan veriliş, proqram və ədəbi-bədii kompozisiyalar, 49 faizini isə konsert və digər hazır radiomateriallar təşkil etmişdir.

Naxçıvan Dövlət Radiosunun dekabr ayında da əsas mövzusu vətənpərvərlik olmuşdur. Belə ki, ay ərzində efirə təqdim edilən "Sizdən soruşuruq", "Sizli bizli" verilişlərində Vətən müharibəsinin iştirakçıları qonaq olmuş, bəzisi ilə telefon bağlantısı yaradılmış və onlar müharibə xatirələrini danışmışlar.

Şura dekabr ayında "Kanal 35" televiziyasının fəaliyyətini də yaxından izləmiş, proqram siyasəti diqqətdə saxlanılmışdır. "Kanal 35" televiziyasında maarifləndirici və məlumatlandırıcı videomaterialların yayımı istiqamətində dekabr ayında 384 videomaterial efirə təqdim edilmişdir ki, bu da efirin 72,3 faizini təşkil etmişdir.

Şura əməkdaşları dekabr ayında "Naxçıvanın səsi" radiosunun efirini müntəzəm olaraq izləmiş və monitorinqini aparmışdır. Bəhs edilən dövrdə radio 248 saat efirdə olmuşdur. Efir müddətində 83 saat canlı yayım proqramları və verilişlər hazırlanaraq dinləyicilərə təqdim edilmişdir.

Xalqımızın əzəmətli qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin şəhid və qazilərini unudulmamış, efirdə "Tarix yazan qəhrəmanlar" adlı radioveriliş yayımlanmağa başlamış, şəhid ailələri və qazilərdən müsahibələr təqdim olunmuşdur.

Efirə təqdim edilən hər bir materialın keyfiyyətinə, vətənpərvərlik mövzularının çoxluq təşkil etməsinə xüsusi əhəmiyyət verilmişdir.

Tədbirlər planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlilini də aparmış, bəhs edilən dövrdə sosial şəbəkələrdə Naxçıvanla bağlı 300-dək foto və video, həmçinin xəbər paylaşmışdır.

Hesabat dövründə şura tərəfindən Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu ilə bağlı mərkəzi mətbuat orqanları üçün 55-i mətbuat xidmətlərinin materialları olmaqla, 96 xəbər, 4 müsahibə və "Heydər Əliyev siyasəti ölkəmizi və onun Naxçıvan Muxtar Respublikasını möhtəşəm zəfərlərə, yeni-yeni uğurlara aparır" sərlövhəli analitik material hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

Əfsanəyə dönən ömürlər

# Vətəni, torpağı hər kəsdən çox sevirdi, vüsalı da Vətən oldu



Bir ilə yaxın idi ki, toy hazırlığı görürdü Mədinə xala. Əzizləyib, oxşayırdı hər gün Vüsalının xına xonçalarını, bəy paltarını. Kənddəki ata evini təmir etdirib balasına bəy otağı bəzəyirdi. O, Mədinə xalanın beş övladının ortancılı idi. Ailədəki iki qız, iki oğlan ailə qursa da, Vüsal hələ tələsmirdi, təhsilim bitsin, kursumu tamamlayım, xidmətimi edim ailə quraram, – deyirdi. Vüsalının vüsalını görmək istəyən Mədinə ana ilə İslam kişi o günü həsrətlə gözləyirdilər. Vüsal isə hər məzuniyyətə gələndə kurslarda, təlimlərdə təltif edildiyi ordenləri, medalları gətirib anasının sinəsinə taxır, bax bütün bu medalları, ordenləri sənin sayəndə almışam. Sən məni vətənpərvər böyütməsəydin, mən uğur qazana bilməzdim. Bunlar sənin haqqındır, ana, – deyirdi.

Bütün bunları qonağı olduğum şəhid ailəsində – Vüsal İslam oğlu Vəliyevin ruhunun işığına toplaşdığımız bir ocaqda öyrənirəm.

Həmsöhbət olduğum Mədinə ana ürək yanğısı ilə danışır :

– Övladlarımın hamısı əzizdir, mənə. Vüsalım isə tamam başqa idi. Göz bəbəyim idi o. Hər səhər zəng vurur, səsini eşitməyəndə gücüm tükənir, səsin mənə güc verir, – deyirdi. O qədər həssas idi ki, ailəsinə qarşı... Aprel döyüşlərində yaralananda heç birimizə xəbər verilməyini istəməmişdi. Bir böyük oğlum Apoş gedib Gəncədə hospitalda onu görmüşdü. Ona da bərk-bərk tapşırmışdı ki, bilməsin atamgil. Hər məzuniyyətə gələndə elə həvəslə danışırdı ki, əsgərlərimizin təlimlərdəki uğurlarından. Deyirdi, ana, mütləq geri alacağıq torpaqlarımızı. Səni Şuşaya, oradan da Kəlbəcərə, İstisuya aparacağam. Oradakı bulaqlar min dərdin dərmanıdır. Vətən müharibəsi başlayan gündən hər gün gözüm telefonda qaldı, hamı zəng vurdu, ondan soraq gəlmədi. Gecə-gündüz əlimi Uca Tanrıya tutub dua elədim, xalqımızı, oradakı balalarımızı qoru, başımızı dik, alnımızı açıq et, Allahım, – dedim. Atası ondan xəbər gəlmirdi deyə, çox təlaşlanırdı, əlaqə saxlaya bilmirdi. Naxçıvan şəhidləri öz doğma yurduna gətirildikcə fikrə dalır, Vətənin keşiyində duran bütün oğullarımız Allaha əmanət olsunlar, – deyirdi. Heç vaxt mənə bildirmirdi fikirli olduğunu. Günün çoxunu Vüsalın ev tikdirmək üçün aldığı dirrik yerində keçirirdi. Mənə deyirdi ki, fikir eləmə, o, qoçaq oğlandır, indi aslan kimi döyüşür, sağ-salamat qayıdacaq. Amma hiss edirdim ki, ömürgün yoldaşım Vüsalın müharibədə itkin düşməyindən bərk nigarandır. Bu ona niskilli uşaqlığını xatırladırdı. Axı o, üçgünlük olanda atası İkinci Dünya müharibəsində itkin düşmüşdü. Elə, bəlkə də, bu fikir onun ürəyinin dayanmağına səbəb oldu. Vüsal üçün xəyallar qurduğu – evi bu tərəfdən tikərik, ay oğul, üzü gündoğana tikilən ev yaxşı olur. Həyətə də bağ salarıq, – dediyi həyətdə də həyatla vidalaşdı. Həyat yoldaşımı itirəndə Vüsaldan hələ xəbər olmasa da, ürəyim hiss edirdi ki, o yaşayır, hələ də döyüşür. Həmin gün isə (noyabrın doqquzu), sanki od düşmüşdü ürəyimin başına, özümə yer tapa bilmirdim. Həmin vaxt bir anlıq səs gəldi, sanki kimsə məni şəhid anası deyə səslədi, tez çölə çıxıb həyətə boylandım. Heç kim yox idi. Bircə ağ göyərçin gəlib qonmuşdu qapımıza. Sinəsi yaralı bir göyərçin. Sonradan bildim ki, həmin an balam şəhid olub. Bəlkə də, elə həmin ağ göyərçin Vüsalımın ruhu imiş. Sülh tərəfdarı idi axı balam. Oğlumun cənazəsi gələn gün də gəlmişdi həmin ağ, yaralı göyərçin.

Vüsalımın cənazəsi gələn günü mənə xəbər verdilər onun şəhid olduğunu. O an ağlımdan ilk keçən onu kim qarşılayacaq fikri oldu. İki oğlum var, qohum-qonşum çox olsa da, atası yox idi. İslam sağ olsa, balamı özü qarşılayardı, – dedim. Öyrənəndə ki, elimizin əziz ağsaqqalı – Ali Məclisin Sədri şəhidləri özü şəxsən qarşılayıb, yanan ürəyim az da olsa, sakitləşdi. Vüsalım atasız qarşılanmadı, – dedim. İgidimi ocağımıza gətirəndə evimizi toy evi kimi bəzədim, yoluna qırmızı xalça sərdim. Toy çaldırdım balama. Sən şəhidlik köynəyini bəy paltarından üstün tutdun. Vətənini öz yarından, anandan, bacından çox sevdin, Vüsalım, – dedim.



***Apoş Vəliyev (qardaşı):*** – Vüsalın ən böyük arzusu Vətənin bütövlüyü idi. O, dünyaya göz açdığı il elimizin üstünü qara buludlar almışdı. Uşaqlığı mənfur düşmənin atdığı mərmi səslərini, Vətən uğrundakı döyüşlərdə canından keçən igidlər haqqında hadisələri dinləməklə keçmişdi. Uşaqlıq arzusu idi hərbçi olmaq. Vətən müharibəsi başlayandan bir neçə gün sonra ondan xəbər ala bilmədik. Qəlbimizi şübhə didirdi ki, yəqin Murov əməliyyatında itirdik onu. Amma son ana kimi ümidli idim. Onunla son yazışmamızda, hər şey yaxşıdır, özünüzdən muğayat olun, narahatçılığa gərək yoxdur, yazmışdı. O, həmlə batalyonunun komandiri idi. Vaxtilə Polad Həşimov kimi zabitlərdən öyrənmişdi hərb sənətinin sirlərini. Həmişə deyirdi ki, mən əsl generalın tələbəsiyəm. İyulda baş verən təxribatda Polad Həşimovun şəhid olmasından çox sarsılmışdı. Onun qisasını almağa can atırdı. Fürsət tapıb Bakıya gələndə onun məzarına gedir, əziz generalımız, qisasınızı almadan bu dünyada bizə rahat nəfəs almaq haramdır, – deyirdi. O, hərbçi olmağı o qədər sevirdi ki, yaralansa belə, ordudan təxris olmadı. Qələbəyə böyük ümid bəsləyirdi. Ali Baş Komandanın rəhbərliyi ilə qaytaracağıq Qarabağı, – deyirdi hər dəfə söhbətləşəndə. Hərdən ona, sanki sən Şuşada dünyaya gəlmisən, o qədər sevirsən ki Qarabağı, elə bil qarabağlısan, – deyərdim zarafatla. O isə həmişə gülümsəyib cavab verərdi: – Vətənin o başı, bu başı olmaz. Naxçıvan da, Şuşa da, Qarabağ da, bütöv Azərbaycan bizimdir. O, şəhidlik şərbətini də elə çox sevdiyi Şuşada içdi. Vüsalın şəhid olma xəbərini eşidən gündən zabit yoldaşları, dost-tanışları, əsgərləri hər gün mənə zəng vurur, yazır, onun igidliyindən danışırlar. Qardaşımın cənazəsini görəndə düşündüyümdən də igid biri olduğuna şahidlik etdim. Qolunda və ayaqlarında sarğı olduğundan onun yaralı-yaralı döyüşdüyünü bildim. Yoldaşları yaralı olmasına baxmayaraq, döyüş meydanını tərk etmədiyini hər dəfə qürurla dilə gətirirlər.

Zabit yoldaşı Qəzənfər Dünyamalıyev deyir ki, bu gün həyatdayamsa, bunu döyüş yoldaşım Vüsala borcluyam. O məni yaralı vəziyyətdə öz həyatını təhlükəyə ataraq səngərdən çıxarıb. Yeddi kilometr yolu çiynində daşıyıb. O yaralansa da, heç vaxt geri çəkilmədi, həmişə irəli, ardımca dedi.

Vüsalın cənazəsini Naxçıvana gətirəndə Ali Məclisin Sədri hava limanında şəxsən qarşıladı. Doğma atamız kimi dərdimizə şərik oldu. Atamın yoxluğunu bizə hiss etdirmədi. Bizim, bütün şəhid ailələrinin bircə istəyi və bir təsəllisi var: əzizlərimizin xatirəsinə ehtiramla yanaşılsın, onlar unudulmasın. Bütün bu sadaladıqlarıma isə mən burada – doğma yurdumda bir daha şahid oldum. Naxçıvanlılar öz doğması kimi qarşılayır şəhid balalarını, onlara el ağlayır, onlarla hamı qürur duyur.

***Tural Vəliyev (qardaşı):*** – Bizim aramızda az yaş fərqi olduğu üçün əkiz kimi idik. Həmişə hər yerə bir gedər, birlikdə oyun oynayar, məktəbdə də bir-birimizdən ayrılmazdıq. Onun yüksəldiyi zirvə həmişə arzusunda olduğu bir zirvə idi. Vüsal Heydər Əliyev adına Hərbi Liseyi bitirəndən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbini də uğurla tamamladı. Beyləqan, Ağdam, Tərtər, Qazax, Tovuz, Göygöl rayonlarında Murovdağ silsiləsində xidmət keçib, mayor rütbəsinəcən yüksəlib. Sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan əks-hücumda Murovdağda, Murov yüksəkliyinin azad edilməsi əməliyyatında iştirak edib. Noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. 14 dekabrda Şərur şəhərinin Şəhidlər xiyabanında dəfn olunub. O, hərbi xidmət dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Əfqanıstanda sülhməramlı missiyaya görə" medalı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən isə "Vətən uğrunda" medalı ilə təltif edilib. Mən bir şəhid qardaşı kimi ailəmiz adından dövlət başçısına və muxtar respublikamızın rəhbərinə bu diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm.

*Azərbaycan əsgərinin dilində Vətən nəğməsi, könlündə Qarabağ yanğısı, ürəyində düşmənə nifrət hissi ilə döyüşə atıldığı, tarixi ədalətin bərpa edildiyi 44 günlük Vətən müharibəsində candan öncə Vətən deyən, sinəsini düşmən gülləsinə sipər edən oğullarımızın sayəsində tarixə yazıldı Vətən savaşı. Hər bir əsgər aslan kimi döyüşdü, Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Vətəndən daha əziz, daha yüksək heç nə yoxdur. Belə Vətən sevgisi görməmişdi dünya dünya olanı. Vüsal kimi yüzlərlə igid Azərbaycan oğlu öz canı bahasına vüsalına – Vətəninə qovuşdurdu 30 ildir, torpaq həsrəti ilə yanan ürəkləri. Özləri isə xalqımızın ürəklərdə sönməyən məşələ döndülər.*

**Ramiyyə ƏKBƏROVA**

***Bu günlərdə Süleyman Cəfərov, Pəri Əliyeva, Təranə Cəfərovanın müəllifliyi ilə "Təcili tibbi yardım" adlı kitab oxucu ünvanına yol alıb.***

Yeni nəşrlər

# "Təcili tibbi yardım" monoqrafiyası işıq üzü görüb




Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının 2019-cu il 12 noyabr tarixli qərarı ilə çap olunan sanballı monoqrafiyanın məsləhətçisi Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri, Azərbaycan Respublikasının Əməkdar həkimi Niyazi Novruzov, rəyçisi mərhum kardioloq-həkim Alı Əliyev, elmi redaktoru isə tibb elmləri doktoru, dosent İsa Abdullayevdir.

Kitabda təcili tibbi yardım xidmətinə dövlət qayğısından bəhs olunarkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin təqdimatındakı bu sözləri xatırladılır: ***"Səhiyyə sahəsində ən mühüm məsələlərdən biri də təcili tibbi yardım xidmətinin təşkilidir. Ona görə ki, xəstəyə vaxtında tibbi xidmətin göstərilməsi onun həyatını xilas edir. Vaxtında və düzgün tibbi xidmət göstərilmədikdə isə insan həyatı üçün təhlükə yaranır. Bütün bunlar nəzərə alınaraq muxtar respublikada təcili tibbi yardım xidmətinin təşkili diqqətdə saxlanılır".***

Monoqrafiyanın müəlliflərindən biri olan Süleyman Cəfərov muxtar respublikanın tanınmış kardioloq həkimidir. O, 1981-88-ci illərdə Naxçıvan şəhər Təcili yardım stansiyasında çağırışçı həkim işləyib. Hazırda Kardioloji Mərkəzin həkim ordinatoru, 2004-cü ildən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Tibbi yardımın təşkili şöbəsinin müdiridir. 2018-ci ildə Naxçıvan Dövlət Universitetinin Ümumi təbabət və gigiyena kafedrasına baş müəllim təyin olunub. Daxili xəstəliklər fənnindən dərs deyir. 2007-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi", 2008-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar həkimi" fəxri adlarına layiq görülüb. 2 kitabın, 8 metodik vəsaitin, 25-dən artıq elmi məqalənin müəllifidir.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə çap olunmuş bu kitab 57 bölmədən, 566 səhifədən ibarətdir. Hər bir bölmədə təcili tibbi yardım ilə bağlı təhlil aparan müəlliflər mövzuya dair şəkillərlə, cədvəllərlə oxucuya maraqlı məlumatlar əldə etmək imkanı yaradıblar.

Kitabda müxtəlif təcili-təxirəsalınmaz tədbirlərə ehtiyac olan xəstəliklərin diaqnostikası və göstərilən ilkin tibbi yardımın xronoloji ardıcıllığı öz əksini tapıb. Bütün ixtisas üzrə həkimlər üçün nəzərdə tutulan yeni monoqrafiyadan orta tibb işçiləri, bu sahə üzrə təhsil alan tələbələr də istifadə edə bilərlər. Həm də hər bir oxucuya ünvanlanan bu kitab zaman-zaman öz dəyərini qoruyub saxlayacaq. Çünki bu sənin, mənim, onun, bütövlükdə, hamının bilməli olduğu məsələlərdən bəhs edir. İnanırıq ki, özünün və doğmalarının əhatəsindəki insanların sağlamlığına biganə qalmayan hər kəs üçün "Təcili tibbi yardım" monoqrafiyası stolüstü kitab olacaqdır.

**Hüseyn ƏSGƏROV**

# Gənclərin asudə vaxtı səmərəli təşkil edilir



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən dekabr ayında da gənclərin asudə vaxtlarının səmərəli təşkili, dünyagörüşlərinin formalaşdırılması, idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.*

Ötən ay könüllülüyün gənclər arasında daha geniş təbliğ edilməsi məqsədilə 5 dekabr – Beynəlxalq Könüllülər Günü ilə əlaqədar könüllü gənclər arasında futzal və "Xəmsə" milli intellektual oyunu üzrə yarışlar keçirilmiş, qalib gənclər mükafatlandırılmışdır.

Gənclərin intellektual səviyyəsinin artırılması və dünyagörüşünün formalaşdırılması, o cümlədən yol hərəkəti qaydalarının təbliği məqsədilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə gənclər arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə "Qış kuboku" keçirilmiş, "Kim? Nə? Hara?" intellektual oyununun seçim və final mərhələlərinin televiziya çəkilişləri təşkil olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin anım günü ərəfəsində gənclərin Heydər Əliyev Muzeyinə, Naxçıvanda turizm potensialının təbliği məqsədilə ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin "Welcome to Nakhchivan" adı altında "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ekskursiyaları təşkil edilmiş, tələbələr arasında "Qarabağ Azərbaycandır!" adlı rəsm müsabiqəsi keçirilmişdir.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Naxçıvan şəhərindəki "N" hərbi hissənin əsgərlərinə sovqat aparılmış, həmçinin muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərlə görüş keçirilmiş, onların mükafatlandırılma mərasimi təşkil olunmuşdur.

Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən dekabr ayı ərzində "Qəhrəmanlar unudulmur" adlı videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 16, mənzil 47 ünvanında Heydərov Fəttah Səməd oğlunun adına olan 7186 inventar nömrəli texniki pasport və 04/417 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 20